# SOVET- BOLŞEVIK REJIMINƏ QARŞI MÜBARIZ INSAN OBRAZI

Hicran BABAYEVA*

**Xülasə**: Məqalədə Sovet-bolşevik işğalına qarşı mübarizə aparan dinşünas alim, folklorşünas, tədqiqatçı, repressiya qurbanına çevrilən Bəhlul Behcət və onun ədəbiyyatda yaradılmış obrazından bəhs edilir. Aydın olur ki, bu obrazlaşma iki istiqamətdə özünü göstərir. Birinci istiqamət sovet dövrü ədəbiyyatında Bəhlul əfəndi obrazıdır. Bu əsərlər hər nə qədər bolşevik prizmasından yazılsa da, Bəhlul Əfəndinin mübariz ruhlu, məqsədyönlü, dövrünün nüfuzlu din və ictimai-siyasi xadimi kimi əks olunması danılmazdır. Bu fikirləri müəlliflər öz əsərlərində irticaçı rejimin tərəfdarlarının dilindən səsləndirir. Müsibətlərdən keçmiş xalq, faciələr yaşamış etnos baş verənlərin təhlilini aparmaqla qənaətini ortaya qoymağa başladı. Müstəqillik əldə edildikdən sonra yazılmış əsərlərdə rast gəlinən Bəhlul Behcət obrazı buna misaldır.

***Açar Sözlər:*** *Bəhlul Behcət, Bədii Obraz, Sovet Rejimi,Dini Dəyərlər, Mübarizə*

**Image of a Fighter Against The Soviet-Bolshevik Regime**

**Abstract**: The article talks about Bahlul Behjat, a religious scientist, folklorist, researcher who fought against the Soviet-Bolshevik occupation, who became a victim of repression, and his image created in literature. It is clear that this image manifests itself in two directions. The first direction is the character of Bahlul Efendi in the literature of the Soviet period. Although these works are written from the perspective of the Bolsheviks, it is undeniable that Bahlul Efendi is reflected as a militant, goal-oriented, influential religious and social-political figure of his time. The authors express these ideas in their works from the mouth of the supporters of the reactionary regime. People who have gone through calamities, ethnos who have experienced tragedies, began to express their conclusions by analyzing what happened. An example of this is the character of Bahlul Behcet, who is found in works written after independence.

***Key Words:*** *Bahlul Behjat, Artistic Image, Soviet Regime, Religious Values, Struggle*

## Giriş

XX əsrin əvvəlləri Rusiyanın işğalçılıq siyasəti, Azərbaycanın ikiyə bölünməsi milli şüura, onun psixologiyasına, mədəniyyətinə, ictimai-siyasi düşüncəsinə təsiri və bu yolda müsəlmanlara qarşı çevrilən ədalətsiz mövqe Bəhlul Behcət kimi mübariz ruhlu şəxsiyyətləri öz soy kökündən, milli mənşəyindən uzaqlaşdıra bilmədi. Zəngəzurda sovet hakimiyyətin qarşı çıxan, xalqın milli özünüdərkinə, milli-mənəvi, dini-əxlaqi dəyərlərin formalaşmasında, onları qorumaq, nəsildən-nəslə ötürməsində müstəsna xidmətləri ilə yaddaşlarda qalan Bəhlul Əfəndiyev Behcət 1868-ci ildə Qubadlının Dondarlı kəndində dünyaya göz açmışdır. Ilk təhsilini atasından alan B. Behcət uşaq yaşlarından dini və dini elmləri lazımı qədər yüksək səviyyədə mənimsəyə bilmişdir. Daha sonra təhsilini davam etdirmək üçün Türkiyəyə üz tutan Bəhlul əfəndi dövrünün nüfuzlu din xadimləri, alimləri  ilə yaxından tanış olmuş və bu onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdı. Müsəlmanlar arasında dini savadsızlığın qarşısını almağa çalışan Bəhlul Əfəndinin İslami dəyərləri yaymaqda, yaşatmaqda və müdafiə eməkdə mühüm xidmətləri olmuşdu. Yaşadığı Zəngəzur qəzasında müsəlmanların dini baxımdan maariflənməsi, savadlanması yolunda əhəmiyyətli addımlar atan ədib İslam adı altında baş qaldıran mövhumatçı fikirlərə, dində məzhəb ayrıseçkiliyinə qarşı çıxmışdır. Onun mütəmadi olaraq mütaliə etməsi və yaradıcılıqla məşğul olması, əhali ilə xoş rəftarı dövrünün nüfuzlu din xadiminə çevrilməsinə səbəb olmuşdur.

## 1. Sovet Dövrü Ədəbiyyatında Bəhlul Behcət Obrazı

Bu məqalədə B.Behcət və müasir elmi-ədəbi proses kontekstində təhlilə gətirilməli məsələlərdən birisi onun bədii ədəbiyyatda yaradılmış obrazının ümumiləşdirilməsi ilə bağlıdır. Sovetlər imperiyasının türk xalqlarına, eləcə də onun bir qövmü olan azərbaycanlılara qarşı törətdiyi faciə və fəlakətlərin sonu bir sonsuzluğa bağlanır. İmperiyanın tərkibində olan xalqlara yanaşma, idarə konsepsiyası bütün parametrlərdə əzməyə, təqibə köklənmişdir. Bolşeviklərin siyasətindəki 20-ci illərdən başlayan repressiya 37-ci ildə bütün mahiyyəti ilə özünü göstərməklə yanaşı, həm də insanlıq üçün ibrət dərsinə çevrildi.

* fil.ü.f.d. Bakı Avrasiya Universiteti, Xarici Dil və Ədəbiyyat Kafedrası. e-mail bshafiqa@mail.ru.

Azərbaycanın böyük bir ziyalı hissəsi, daha doğrusu, bəzi istisnalar nəzərə alınmazsa düşünən beyinlərini sıradan çıxarmaq yolu tutuldu. B.Behcət də bu sırada öncüllərdən idi, eyni zamanda bütün mövqeyi ilə əvvəldən axıra qədər imperiyanın mahiyyətini dərk edərək ona açıq mövqe bildirənlər sırasında olmuşdu. Ona görə də görkəmli ədəbiyyatşünas, tarixçi, din alimi B.Əfəndiyevin həyat və fəaliyyətinin müxtəlif səviyyələrdə obrazlaşması sırf təbii proses olaraq özünü göstərir. Bu obrazlaşma bir istiqamətdə sovetlər dönəmi yazılanlarla xarakterizə olunursa, digər kontekstdə imperiyanın çöküşündən sonra ilə əlaqələnir və Bəhlul Əfəndinin bədii obrazının Azərbaycan ədəbiyyatında yaradılması özünü iki istiqamətdə göstərir.

a) sovetlər dönəmi ədəbiyyatda Bəhlul Əfəndinin obrazlaşması;

b) müstəqillik dövrü ədəbiyyatda Bəhlul Əfəndinin bir tarixi şəxsiyyət kimi bədii düşüncəyə gətirilməsi.

Ə.Vəliyevin "Zəngəzur qartalları", N.Heydərovun "Zəngəzur dağlarında", O.Qüdrətovun "Keçilməmiş yollarla" və s. əsərlərdə görkəmli ensiklopedik sima, mücahid B.Behcətə yanaşma sırf ideoloji müstəvidə olan yanaşmalardır və onun "xalq düşməni" obrazının yaradılması əsas xətt kimi götürülür. "Panislamist", "pantürkist", "fitnəkar", "vətən xaini", "sosialist ideyalarının düşməni" və s. düşüncəsində təhlil olunur. Əli Vəliyevin sonrakı etiraflarında görkəmli ictimai xadim B.Behcətə olan münasibətin mahiyyəti bir daha aydınlaşır və bir növ xalq yazıçısı bu etirafları ilə bütün qaranlıqlara, B.Behcət və bu sıradan olanlarla bağlı deyilənlərə aydınlıq gətirir.

"Bəhlul Behcət XX əsrin birinci yarısında yaşamış milli və dini mənsubiyyətinə qırılmaz tellərlə bağlı bir ziyalı kimi kommunist idealogiyasının mənfur mahiyyətini dərk etmişdi. O, bütün həyatı boyu milli mənəvi və dini əxlaqi köklərdən qaynaqlanmışdı. Buna görə də bolşevik rejiminin ən sərt tufanına tuş gələrək məhv edilmişdir. Onun həyatı və fəaliyyəti haqqında məlumat çox azdır. Çünki repressiya qurbanlarını həbs edən gün evində axtarış aparır, nəyi vardısa məhv edir, olanları sıradan çıxarmağa çalışırdılar"( Babayeva, 2017: 328). Bəhlul Behcətin həyatının mühüm bir hissəsi, daha çox isə 1918-1922-ci illərdəki fəaliyyəti haqqında məlumatlar Nəzər Heydərovun "Zəngəzur dağlarında" adlı əsərində özünə yer alır. Düzdür, bu əsər sırf idealoji xarakteri ilə siyasi sistemin formalaşdırdığı təfəkkürlə yazılsa da, mahiyyətindəki faktlar, ədibin həyatı ilə bağlı bilgilərin ortaya çıxarılması kontekstində gərəkli səciyyə daşıyır. N.Heydərov (1896-1962) sistemin özünün yetişdirdiyi məmurlardan olub və bütün fəaliyyəti ilə də sosializm ideyalarına köklənmiş şəxsiyyətlərdən idi. O, Azərbaycanda sovet hakimiyyəti uğrunda gedən mübarizədə qatı bolşevik kimi iştirak etmiş, sonra isə bir sıra partiya və Sovet təşkilatlarında məsul vəzifələrdə çalışmışdır. SSRİ və Azərbaycan SSR Ali sovetlərinin deputatı, 1949-53 cü illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri olmuşdur. 1972 ci ildə "Zəngəzur dağlarında" adlı xatirələrindən bəhs edən əsəri rus və erməni dillərində nəşr olunmuşdur. Bu isə bütünlükdə mahiyyəti aydınlaşdırır. Qəribədir ki, 1987-ci ildə artıq ermənilər Qarabağa olan iddialarını yenidən qaldırmış, geniş hərəkata başlamışdılar. Məhz bu dövrdə - yəni kitab rus və erməni dillərində çap olunduqdan 17 il sonra (1989-cu ildə) Azərnəşr tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Fikrimizcə, bu əsərin tərcüməsi zamanı mahiyyət və məsələlərə münasibət başlanğıcda öz ifadəsini tapmalı olduğu halda heç bir şərh verilməmişdir.

Əsər Azərbaycanın qədim mədəniyyət ocaqlarından olan Zəngəzurun təsviri ilə başlayır. Mahalın əlverişli coğrafi mövqeyi, əhalinin milli mənşəyi, həyat tərzi, məşğuliyyəti və s. haqqında ətraflı məlumat verilir. Daha çox isə XX əsrin əvvəlində, 1917-22-ci illər arası baş verənləri ideoloji mövqedən əks etdirmək məqsədi daşıyır. Təkrar qeyd edək ki, kitab başdan-başa bolşevik-daşnak siyasəti mövqeyindən yazılmışdır. Azərbaycan və erməni xalqlarının "dostluq əlaqələri"nin möhkəmləndirilməsi bir tezis kimi qabardılır. "Əvvəlcə türk sonra isə ingilis müdaxiləçilərinə arxalanaraq müsavatçılar burada quldur dəstələri təşkil edir,

günün günorta çağı kəndləri talayır, azərbaycanlılarla ermənilərі bir-birinin üstünə salmağa çalışırdılar" ( Heydərov, 1988: 40) və s. kimi məsələlər aparıcı ideyanı müəyyənləşdirir.

Müəllifin bütün fikir və düşüncələri sırf siyasi sistemin müəyyənləşdirdiyi prinsipə əsaslanır. Məsələn, 1918-ci il martın 30-da baş vermiş azərbaycanlıların soyqırım hadisəsi ilə bağlı deyilir: "1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda müsavatçılar sovet hakimiyyəti əleyhinə silahlı qiyam qaldırdılar. İnqilabi qüvvələrlə müsavatçı əksinqilabçılar arasındakı ölüm-dirim mübarizəsi Bakı proletariatının qəti qələbəsi ilə qurtardı. Hakimiyyət Bakı sovetinin əlinə keçdi. 1918-ci il aprelin 25-də başda Şaumyan olmaqla Bakı Xalq komissarları soveti yarandı" (Heydərov, 1989: 38). Bu hadisənin siyasi, tarixi qiyməti siyasətçilər, elm adamları tərəfindən lazımı qədər verilmiş və mahiyyət aydınlaşmışdır. Son olaraq Azərbaycan hakimiyyəti 1990-cı illərdə baş verən tarixi soyqırıma öz mövqeyini bildirmiş və 1998-ci ildən 30 mart azərbaycanlıların soyqırımı günü kimi qeyd olunmağa başlamışdır. Burada xüsusi yanaşmalı məsələlərdən birisi müəllifin Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhurriyyətinə sərgilədiyi münasibətdir. "...Müsavat respublikası dövründə açıq-aşkar, heç bir qanunla məhdudlaşmayan orta əsr despotizmi hökm sürürdü" (Heydərov, 1989:40). Əslində isə müsavatın, Azərbaycan Xalq Cümhuriyyətinin xalqın yaddaşında yaratdığı təsəvvür tamamilə fərqli olub, bəşəri dəyərlərə söykəndiyi məlumdur. Kitabda bütün təhlillər, ortaya qoyulan konsepsiya yaddaşı zədələmək, tarixi həqiqətə, reallığa kölgə salmaq məqsədinə xidmət edir. Bolşevik təfəkkürünün və siyasi sistemin diktəsinin məhsulu olduğu bütün aspektləri ilə aşkarlanır. B.Əfəndi və mühitin digər mütərəqqi dünyagörüşlü ziyalıları "xalq düşməni" timsalında tənqid hədəfinə çevrilir. Məsələn, "biz bilirdik ki, Bəhlul Əfəndi və Kələntərov istəsələr çox adamı general Njdenin yanına yığıncağa getməyə qoymazdılar"(Heydərov,1989:112) fikrini söyləyir. Məlum olduğu kimi, Bəhlul Behcət bütün həyatı boyu Azərbaycan xalqını təriqət ayrılığını bir yana qoyub islami birliyə çağırmışdır. Ayrılmaların, təriqətlərin bölücü mahiyyətini, məqsəd və məramını müxtəlif məqalələrində konkret nümunələr əsasında şərh etmişdir. N.Heydərov isə B.Behcətin bu addımını (sünnülərlə şiələrin birləşməsini) fitnəkarlıq və təxribatçılıq kimi təhlil edirdi (Heydərov, 1989:.147). Kitabın 7-ci fəsli "Bəhlul Əfəndi Behcətin fitnəsi" adlanır. Dinin böyük şəxsiyyətləri, hətta peyğəmbərlə bağlı fikirlərində də bir bolşevizm mövqeyi özünü göstərir. N.Heydərov B.Behcətlə şəxsi söhbətləri timsalında yazır: "Mən cavab verdim: Məhəmməd VII əsrin feodallarının, qolçomaqlarının tərəfini saxlayırdı. İndi Əfəndi, iyirminci əsrdir, zəhmətkeşlər istismardan azad olurlar" (Heydərov, 1989:163). Bütün bunlar və bu kimi faktlar N.Heydərovun sinfi-partiyalı mövqeyi ifadə edirdi.

Əsərdən öyrənirik ki, Bəhlul Behcət Zəngəzur qazisi imiş. "Hacı Qasım Çələbinin qızı ilə evlənmiş imiş. İrandan Molla Həsənqulunu da gətiribmiş ki, məhərrəmlikdə mərsiyə oxusun. Özü sünni olsa da, şiəliyə də hörmət edən Bəhlul əfəndinin hərəkətləri haqqında müəllif deyirdi:

"Xanlıqda, belə işlərdə çox mahir olan molla Həsənqulu çıxış edirdi. Onu fırıldaqçı Bəhlul Əfəndi Sovet hökumətindən xəlvət, məxsusi bu iş üçün İrandan gətirmişdi. Bu "cəhalət təbliğatçısının" yaxşı səsi var idi, qanlı Kərbəla müsibəti ilə əlaqədar hekayət və rəvayətləri yaxşı bilirdi" (Heydərov, 1989:168). Göründüyü kimi, müəllifin tarixi hadisə və reallıqlara münasibəti sırf ideoloji aspektləri ilə tendensiya xarakteri daşıyır: "Ruhanilər öz ciblərinin qayğısına qalaraq, sadə qəlbli dindarlara nə vaxt isə Kərbəlada bir dəstə ərəb feodalları öldürülən zaman baş vermiş hadisələr haqqında uydurmalar danışır, anti-sovet əhval ruhiyyələ insanların şüurunu məharətlə zəhərləyirdilər" (Heydərov, 1989:167) düşüncəsinə köklənir.

N.Heydərov "Zəngəzur dağlarında" əsəri bütün mahiyyəti ilə sovet ideoloji sisteminin müəyyənləşdirdiyi meyar və prinsiplər əsasında yazılmışdır. B.Behcətin şəxsiyyəti, mücadiləsi, dini dünyagörüşü, məzhəb ayrılıqlarına münasibəti sırf ideoloji xarakteri ilə siyasi mühitin münasibətini ifadəyə köklənir. Məzhəb etibarilə sünni olan B.Behcətin şiə təriqətinə

hörmətlə yanaşması kinayəli tərzdə yazıya gətirilir və vurğulanır ki, "başda Bəhlul Əfəndi olmaqla bu ünsürlər Sovet hökuməti əleyhinə fəal mübarizə aparmaq fikrində idilər. Onlar öz çıxışlarını iki dini təriqəti – sünnüləri və şiələri birləşdirmək təşəbbüsündən başladılar" (Heydərov, 1989:166). Əsərdən görünür ki, B.Behcət və digər mütərəqqi dünyagörüşlü ziyalılar həmin ayırmaların aradan qaldırılmasına qismən nail olmuşlar. Müəllif B.Behcətin tutulması məsələsini də diqqət önünə gətirir və qeyd edir ki, Bəhlul 1923-cü ilin payızında İrandan qayıtdıqda tutulub 10 il müddətinə həbs cəzasına məhkum edildi. "Zəngəzur dağlarında" B.Behcətin həyatının mühüm bir hissəsi, şəxsiyyəti siyasi baxımdan təqdim olunsa da həmin dövrü təhlil etmək, doğru nəticəyə gəlmək üçün mənbə kimi əvəzsisdir

Oruc Qudrətovun "Keçilməmiş yollarla" romanı Bəhlul Əfəndi Behcətin həyatını, şəxsiyyətini tipoloji müstəvidə aydınlaşdırmaq üçün daha çox diqqəti cəlb edir. "Romanda Azərbaycanda sovet imperiyasının qurulmasından, bu rejimə qarşı çıxan üsyançıların, əksinqilabçıların mübarizəsindən bəhs olunur. Bolşevik rejiminin yeni qanunları ilə barışmaq istəməyən Zəngəzur əhalisi öz müstəqilliyini, din və etiqad azadlığını qorumaq üçün silaha sarılaraq şura hökumətinə qarşı mübarizəyə qalxmışdırlar. Onların başında isə Bəhlul Behcət dayanmışdı". Müəllif Bəhlul Əfəndinin obrazını bədii boyalarla belə təsvir edir: "Başı təvərə örtüklü yeddilik lampanın zəif işığında solğun sifəti daha da solğun görünürdü. Həmişə gülər görünən gözlərinin altı kölgələnmişdi. Tumarı əskik olmayan və sərçə qanadları rənginə çalan topa saqqalının yarı örtük çəkdiyi ətli boynu iri gövdəsinin müqabilində elə bil nazilmişdi"(Qüdrətov, 2008:174). Bu təsvirlər N.Heydərovun fikirlərinin davamı kimi nəzərə çarpır, bir növ xalqın apardığı mücadiləyə kölgə salmaq məqsədi daşıyır. İmperiyanın işğalçılıq siyasətinə, qırğınlara, repressiyaya bəraət qazandırmaq funksiyasını yerinə yetirir. Əsərdə Bəhlul Behcət "padşahlıq" yaratmaq istəyən, "hökmdarlıq" iddiasında olan, öz mənafeyini güdən, öz rahatçılığına düşgün olan bir adam kimi qələmə verilir. Bütün bunlarla yanaşı, müəllif Bəhlul Behcətə olan xalq məhəbbətinin sonsuzluğunu da diqqət önünə gətirir: "Bəhlul əfəndi Çay mahalında çoxlarının nəzərində ağıl və zəka sahibi kimi uca görünürdü. Bu ucalığı fikir yürüdərkən dəlillərə əl atmaq, təlqin etmək bacarığı ilə qazanmışdı" (Qüdrətov, 2008:72]. Əsərdə Bəhlul Behcət ruhani, din xadimi olmaqla yanaşı, həm də bir inqilabçı, siyasətçi, bir sərkərdə kimi də diqqət önünə gətirilir. Onun müridlərinin bir yerə yığaraq məşvərət məclisi təşkil etməsi, bu məclisdə şura hökumətini devirməklə bağlı hazırlanan tədbirlər planı və s. buna nümunədir. Bəhlul Behcətin başçılığı ilə əhali baş verənlərə (işğalçılığa) etiraz olaraq qəza mərkəzi olan Xanlıq kəndinə girir və Cihad bayrağını ilk olaraq orada qaldırırlar və qiyam təşkil edirlər. Behcətin Şura hökumətini devirmək məqsədilə təşkil etdiyi qiyam onun sərkərdəlik məharətinin göstəricisidir. Bolşeviklərin işğalçılıq siyasətinə qarşı yönəlmiş bu hərəkat baş verənlərə son qoymasa da, xalqın yaddaşında bir tarix olaraq özünə yer aldı. Müxtəlif yanaşmalara baxmayaraq, milli mücadilənin hadisəsi olaraq faktlaşdı.

Etirazların daha kiçik ərazini əhatə etməsi, məhəlli xarakter daşıması, qırmızı ordu əsgərlərinin bolşeviklərə köməyə gəlməsi və s. məsələlər Bəhlul Əfəndinin dəstəsinin məğlub olması ilə nəticələndi. N.Heydərovun, O.Qüdrətovun əsərləri sırf siyasi sistemin mövqeyini ortaya qoysa da, mahiyyəti aydınlaşdırmaq və B.Behcətin apardığı mücadilənin məqsəd və məramını açıqlamaq baxımından əsaslı imkanlar yaradır, görkəmli ictimai xadim, milli mücahid, ədəbiyyatşünas, tarixçi, din aliminin fəaliyyətinin müxtəlif aspektlərini öyrənmək baxımından dolğun təsəvvürə gəlmək üçün mənbə funksiyasını yerinə yetirir. Bütün bunlar dövrün mürəkkəbliyini, irticanın mütərəqqi dünyagörüşlü şəxsiyyətlər tərəfindən dərk olunduğunu və əhalinin nələrlə üz-üzə qaldığını düşünməyə əsas verir. Göründüyü kimi, Bəhlul əfəndi xalqı həm siyasi birliyə, müstəqilliyə, həm də dini birliyə, islami vəhdətə dəvət edirdi. O, çox gözəl bilirdi ki, İslamın təriqətlərə parçalanması, iki tirəlik yaranması xalqı parçalamaq üçün Şura hökumətinin əlində ən yaxşı silahdır. Onlar bundan məharətlə istifadə edirdilər. Bu məqsədlə onun mübarizəsi ilk öncə sünnilərlə şiələri birləşdirməklə başlamışdı.

Əgər islami birlik güclü olardısa onda siyasi birlik də möhkəm olardı. Bunu Oruc Qüdrətov öz əsərində belə təsvir edir: "Sünnilər arasında şiəliyi təbliğ edən və etdirən Bəhlul Əfəndi hər iki təriqətə qail olanları vahid bayraq – Şura hökumətinə qarşı cihad bayrağı altında sıx birləşdirmək niyyətində idi" (Qüdrətov, 2008:17). "Keçilməmiş yollarla" romanında vurğulanır ki, "müridlər "ordusunun" sərkərdəliyi ona həvalə olunmuşdu". Bu sətirlərdə biz həmçinin B. Behcət obrazı ilə real Behcətin vəhdət təşkil etdiyini görürük. Əsərdə Şura hökmətinin gizli nümayəndəsi Fəxrəddin sovet hökuməti əleyhinə yaranmış təşkilatın üzvü, komissarlığın casusu idi. O, Zəngəzurda baş verənləri məktub vasitəsilə Kərimlinskiyə danışır. Bəhlul Əfəndi haqqında deyir: "Bərgüşad və Həkəri mahalından alınmış səhih məlumatlar daha çox diqqəti cəlb edir. Uzun illər çay mahalında qazılıq etmiş və böyük nüfuz sahibi olan Bəhlul Əfəndi Behcət Şura hökumətinə qarşı cahad elan etmək üçün hazırlıq görməkdədir. Deyilənlərə görə, onun çağırışına qoşulanların sayı min nəfərdən çoxdur. Adı sizə bəlli olan Şahsuvar ağanın həmyerliləri də təşkil edilməkdə olan ordunun sırasındadırlar" (Qüdrətov, 2008:194). Bununla onlar dərk edirdilər ki, Bəhlul əfəndi Çay mahalında böyük nüfuza malıkdir. Lakin Behcətin məğlub olma səbəblərindən biri o idi ki, bu mübarizədə o, təkcə bir mahala arxalanırdı. Üsyanın lokal xarakter daşıması onun yatırılması ilə sonlanır."Güman edir ki, işin çətini Çay mahalını ayağa qaldırmaqdır, mahal ayağa qalxandan sonra bütün Məhəmməd Hümməti cahad bayrağı qaldıranlara qoşulacaqdır. Fərziyyələrə ümid bağlayıb silaha əl atmaq yaramaz. Çay mahalına düşən bir közün bütün Azərbaycanı oda-alova bürüyəcəyini ehtimal etmək sadəlövhlükdür.

Müdriklərə məsləhət vermək qəbahətdir, lakin qəbahət sayılsa da fikrimi bildirməyi özümə borc bilirəm. Mənə elə gəlir ki, Bəhlul əfəndi ilə təcili əlaqə yaratmaq, şəxsi gümanına əsaslanmasından onu daşındırmaq lazımdır. Onu inandırmaq lazımdır ki, cahad bayrağını qaldırmaqda tələsməsin. Cahad o zaman istənilən nəticəni verər ki, yeni dövrana qarşı çıxacaq bütün qüvvələr döyüşə hazır vəziyyətdə olsun" (Qüdrətov, 2008:194).. Əgər o istəsə hamını tək bir bayraq altında birləşdirər. Fəxrəddin və onun üzv olduğu təşkilat əslində əksinqilabi mübarizənin güclənməsindən, insanların yeni hökumətə qarşı etirazlarından ehtiyat edərək Bəhlul Behcəti öz fikrindən daşındırmağa çalışırdılar. Bu da onun bölgədə nə qədər mübariz, məqsədyönlü bir insan kimi tanındığını göstərir.

Əli Vəliyevin "Zəngəzur qartalları" da Bəhlul Behcət şəxsiyyətinə, mücadiləsinə əks mövqedən yazılmış əsərlər sırasındadır. Əsər bizdə belə təəssürat oyadır: "Zəngəzurda sovet hökumətinin qurulmasında yaxından iştirak etmiş insanların mədhinə həsr olunmuşdu. Kommunist-bolşevik rejiminin qurulmasından bəhs edən bir əsərdə B. Behcət obrazı ilə qarşılaşmamaq qeyri - mümkündür. O, bu əsərdə Nəzər Heydərov, Abbas Sultanov və başqa kommunistləri əsl fədakar, örnək şəxsiyyətlər kimi oxucuya çatdırır. Ə.Vəliyev onların sovet hakimiyyətinin qurulmasında göstərdikləri canfəşanlığı təqdir etdiyi halda, Bəhlul Behcəti hökumətin qatı düşməni, fırıldaqçı, fitnəkar kimi qələmə verərək kəskin tənqid atəşinə tutur"(Babayeva, 2017: 331). Əsərdə deyilir: "... əməkçi kütləni şura hökuməti əleyhinə qaldırmaq istəyən Bəhlul Çələbinin dəstəsi Əliyanlı quldurlarından qorxulu və güclü idi. Bəhlul Çələbi Allahdan vəhy gəldiyini xəbər verir, müsəlman qardaşları cihada çağırırdı" (Vəliyev,1970: 97). Bəhlul Behcət təkcə əlimizdən alınan azadlıq və müstəqilliyimizin deyil, həm də dinimizin, dini dəyərlərimizin, mənəviyyatımızın keşiyində durmuş, mübarizə aparmışdır. Əsərdə diqqət çəkən məqamlardan biri də odur ki, öz milli müstəqilliyini qoruyub saxlayan müsavatçıların mübarizəsi erməni qəsbkarları, daşnakların cinayətkar əməlləri ilə bir səviyyəyə qoyulurdu (Vahid, 2011:11). Göründüyü kimi, N.Heydərovun "Zəngəzur dağlarında", Ə.Vəliyevin "Zəngəzur qartalları" və O.Qüdrətovun "Keçilməmiş yollarla" əsərləri sırf ideoloji mövqedən və sistemin diqtəsi altında yazılmış nümunələr olub bolşevik irticasına bəraət qazandırmaq məqsədi daşıyır. Ensiklopedik zəka sahibi, mütərəqqi ziyalı, ədəbiyyatşünas, tarixçi, din alimi, folklorşünas B.Behcətə olan münasibət və onun yaradılmış

obrazı bir istiqamətdə mahiyyəti ilə repressiyanın, baş alıb gedən irticanın məzmununu aydınlaşdırır.

**2. Müstəqillik Dövrü Ədəbiyatında Bəhlul Behcət Obrazı**

Sovet imperiyasının dağılması özlüyündə milli oyanışın və tarixi reallığın dərkinin yeni mərhələsidir. Çünki müsibətlərdən keçmiş xalq, faciələr yaşamış etnos baş verənlərin təhlilini aparmaqla müəyyənləşmiş qənaətini ortaya qoydu. Artıq S.Mümtazın, V.Xuluflunun, H.Zeynallının, Ə.Cavadın, H.Cavidin, M.Müşfiqin, B.Çobanzadənin, S.Hüseynin və başqalarının repressiya qurbanına çevrilməsinin mahiyyəti bütün aspektləri ilə aşkarlandı. B.Behcətə olan qarayaxmalar, bədii ədəbiyyatda bu cür obrazlaşmasının səbəb və məramı üzə çıxdı. Müstəqilliyin əldə olunması ilə B.Behcətin fəaliyyətinin, həyatının tam reallığa uyğun elmi və bədii məzmununa diqqət yönəldi.

Onun ümumi dünyagörüşündə oturuşmuş milli mənsubluq konsepsiyası və kökləndiyi dəyərlər, mövcud yaradıcılıq nümunələri ilə bolşevizmin ortaya qoyduğu ideoloji sistem arasında ciddi fərqlilik özünü göstərirdi. Bu da heç şübhəsiz görkəmli ədiblə bağlı təsəvvürlərin dəyişməsinə gətirib çıxarırdı. O, heç kimdən və heç nədən çəkinməyən qorxmaz, əyilməyən, məğrur xarakteri ilə sovet imperiya buxovlarını qırmağı qarşısına məqsəd qoymuşdu. Yalnız mübariz və prinsipial insanlar həyatda qarşıya qoyduqları məqsədlər uğrunda amansız mücadiləyə hazır olur, bu yolda hər cür maneələri çətinliklə dəf edirlər. Ömrü siyasi, ictimai hadisələrin burulğanında keçən iti ağlı və səlis mühakimə yürütmək qabiliyyəti olan Bəhlul Behcət də müstəqillik illərində ədəbiyyat yaddaşında bu cür obrazlaşmışdır. *Belə əsərlədən biri Səbahəddin Eloğlunun "Zəngəzur hadisələri" (1992) povestidir. Kitabda Bəhlul Behcət Əfəndi haqqında kiçik məlumat verilir*" (Babayeva, 2016:25).

Bəhlul Əfəndi obrazının yaradılması ilə tarixi gerçəkliklərin bədii ədəbiyyatda və publisistikada daha aydın şəkildə əks olunmasına zəmin yaradır. Üstəlik bu obraz çoxşaxəli bir şəxsiyyətin obrazı olarsa. O həm tarixçi, həm din xadimi, həm də bir siyasi xadim kimi obrazlaşdırılır.

S.Eloğlu "Zəngəzur hadisələri"ndə daşnakların Zəngəzurda törətdikləri vəhşiliklərdən, əhalinin başına gətirilən müsibətlərdən və onlara qarşı mübarizə aparan zəngəzurluların igidliyindən bəhs edir. "Bəhlul Cahadı" adlı hissədə Zəngəzurda gedən döyüşlərdə Bəhlul Behcətin də yaxından iştirak etdiyini bildirir. Onun folklorşünaslıq, ədəbiyyatşünaslıq, ilahiyyat elmi sahəsində gördüyü işləri yüksək qiymətləndirən S. Eloğlu yazır. *Zəngəzurda müsəlmanlar arasında ağır bir yaranı sağaltmağa müvəffəq olmuşdur*" (Eloğlu,1992:21). "*Ağır bir yara"deyərkən o, (S. E) İslam dininin inkişafına və yayılmasına zərbə vuran sünnü – şiə təriqət ayrılığını, onlar arasında olan düşmənçiliyi nəzərdə tutur. S. Eloğlu Bəhlul Behcətin Zəngəzur və zəngəzurlular üçün etdiklərini, onun bolşevik və daşnaklara qarşı apardığı dini mübarizəsini bədii-tarixi kontekstdə yazıya gətirmişdir* (Babayeva, 2016:25). Əsərin "Qaragöl döyüşü" adlı hissəsində Bəhlul Əfəndinin hörmət və izzət sahibi olduğunu açıq-aydın görmək olur. "*Bəhlul Behcət Sultanbəyi ilk dəfə burada gördüyü üçün ona yaxınlaşıb əl verdi. Sultanbəy ona ehtiramla baş əyib təşrif gətirməyinə təşəkkür etdi. Bəhlul Behcət Azərbaycan dilinə tərcümə edib qurtardığı "Quran" kitabının nəfis toxunmuş, üstündə qılınc şəkli olan dəsmala bükülü bir nüsxə əlyazmasını Sultanbəyə bağışladı*" (Eloğlu,1992: 10)

Bəhlul əfəndinin həbsdə keçirdiyi günlər və daşnakların ona qarşı amansızlıqları və s. məsələlər tarixi reallığın bədii dərki kimi ciddi təsir bağışlayır.

Azərbaycanın müstəqilliyindən sonra B.Behcət yaradıcılığını milli düşüncə müstəvisində təhlilə gətirən ədiblərimizdən biri Azad Qaradərəlidir. O, "Zəngəzur qazisi" əsərində ədibin şəxsiyyətini, həyatını, mübarizəsini, siyasi və ədəbi görüşlərini tarixi faktlar və xalq yaddaşında olanlardan çıxış etməklə mahiyyəti aydınlaşdırır. Əsərdə Bəhlul Behcətin

siyasi fəaliyyəti, azadlıq mübarizəsinin məqsəd və məramı, ədəbi yaradıcılığı, elmi-nəzəri dünyagörüşü, folklorşünaslıq fəaliyyəti, bu sahədə yazdığı əsərlərin məzmun mündəricəsi əks olunur.

Əşir Bəşir oğlu Fətəliyev "İşıqlı şəxsiyyətlər unudulmur", "Cəsur qardaşlar" adlı kitablarında vaxtında layiqincə qiymətləndirilməyən, unudulan zəka sahiblərini, görkəmli şəxsiyyətləri tapıb üzə çıxarmışdır. Onlar arasında Bəhlul Əfəndi Behcət də var. Bəhlul Əfəndi təkcə doğulduğu Dondarlı kəndində deyil, bütün Zəngəzurda öz ağlı, zəkası, dünyagörüşü ilə hörmət qazanmışdır.

**Nəticə**

Ümumiyyətlə, XIX əsrin sonu və XX əsrin əvvəllərini ayrıca bir mərhələ olaraq müxtəlif aspektlərdə təhlil etmək və eləcə də B.Behcət timsalında baş verənləri ortaya qoymaq olduqca vacibdir. İdeoloji sistem bir məqsəd olaraq bu tip mübarizələri yatırmaq yolunu tutmaqla kifayətlənmir, həm də "xalq düşməni" hesab etdiyi bu el qəhrəmanları ilə bağlı əsərlərin yazılmasına rəvac verirdi. Ə.Vəliyevin, O.Qüdrətovun, N.Heydərovun əsərləri məhz siyasi sistemin basqıları əsasında yazılmış nümumnələrdir. B.Behcətin isə mükəmməl bədii obrazının yaradılması və onun mübarizəsinin məqsəd və məramının bütün aspektləri ilə açılması imperiyanın dağılmasından sonra baş verdi və bu da məhz müstəqilliyimizin bizə verdiyi imkanlar sayəsində mümkün olmuşdur.

**ƏDƏBIYYAT**

Babayeva, H.T. (2016) Bəhlul Behcət ədəbi düşüncədə // Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransı materialları// Bakı: 24-25 may, C.2. s.24-26.

Babayeva, H.T.(2017) Bəhlul Behcətin bədii ədəbiyyatda yeri // Bakı: Filologiya məsələləri, №8, s.327-335.

Eloğlu, S. (1992) Zəngəzur hadisələri / S.Eloğlu. Bakı: Azərnəşr, 58s.

Heydərov, N. (1989) Zəngəzur dağlarında / N.Heydərov. Bakı: Azərnəşr, 224s.

Qüdrətov, O. ( 2008) Keçilməmiş yollarla / O.Qüdrətov. Bakı: Nurlan, 632s.

Vahid, T. (2011) Sarı Aşığın bayatı dünyası // Mədəniyyət, 1 aprel.

Vəliyev, Ə. (1970) Zəngəzur qartalları / Ə.Vəliyev. Bakı: Gənclik, 280s.